# AZƏRBAYCAN RUZNAMƏSİ

**Azərbaycan Demokrat Firqəsinin orqanı**

آذربایجان روزنامه سی

آذربایجان دموکرات فرقه سینین اورگانی

https://azerbaycan-ruznamesi.org


**Azərbaycan Demokrat Firqəsini Azərbaycan xalqının ehtiyacları yaratmışdır.**

*Seyid Cəfər Pişəvəri*




**3 mart 2026-cı il** * **Qəzet 1945-ci ildən çıxır** * ***XÜSUSİ BURAXILIŞ***


# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ADF-YƏ VƏ GÜNEY AZƏRBAYCAN MİLLİ HƏRƏKATINA DİQQƏTİ, QAYĞISI VƏ İNAMI



# AZƏRBAYCAN DEMOKRAT FİRQƏSİNİN RƏHBƏRLƏRİ

## *1946-cı il*



**Tağı Şahin, Məhəmməd Biriya, Mirzə Əli Şəbüstəri, Seyid Cəfər Pişəvəri, Sadıq Padeqan və Salamulla Cavid**

# AZƏRBAYCAN DEMOKRAT FİRQƏSİNİN ÜZVLƏRİ MİLLİ MÜBARİZƏMİZİN FƏDAKAR NÜMAYƏNDƏSİ, SƏDAQƏTLİ VƏ ETİBARLI DOSTUMUZ RƏHİM HÜSEYNZADƏNİ (HUŞİMƏNDİ) TƏBRİK EDİR!

## *MÜBARİZ BİR ÖMRÜN ZİRVƏSİ: VƏTƏN, SÖZ VƏ AZƏRBAYCAN DEMOKRAT FİRQƏSİ!*



**Elə zaman olur ki, insan təkcə öz ömrünü yaşamır - bir xalqın yaddaşını da özü ilə daşıyır. Elə Rəhim Hüseynzadə kimi... Cənubun köksündən rişələnib, Şimalda milli ideallara çevrilmiş bir həyat! Jurnalistikanın yükünü çiyinlərində daşımaq hər kəsin işi deyil. Amma bu yük Rəhim müəllimin çiyinlərində bir missiyaya çevrildi - mətbuatın ləyaqətini qorumaq, sözün şərəfini yaşatmaq, millətin nəfəsini kəsməyə çalışanlara qarşı qalxmaq!**

Əslən Cənubi Azərbaycandandır. Qəriblikdə doğulmuş bir qürub kimi... Onun qələmi heç vaxt susmadı. Çünki o, nəinki yazırdı - danışmayanların dilinə çevrilirdi. Jurnalist kimi cəmiyyətin içindən keçdi, amma cəmiyyətin içində əriməmdi. Onu fərqləndirən əsas cəhət - öz düşüncəsinə, xalqına, həqiqətə sədaqəti oldu.

Uzun illər Azərbaycan Mətbuat Şurasında icraçı katib kimi çalışdı. O, bu qurumu sadəcə bir struktur deyil, mətbuatın mənəvi qalası halına gətirmək üçün əzmlə çalışdı. Etik prinsipləri qorumaq onun üçün formal bir vəzifə deyildi - bu, onun ruhunun tələbiydi.

Uzun müddətdir ki, R.Hüseynzadə Azərbaycan Demokrat Firqəsinin sədridir. Firqə - bir ideya ocağı, milli düşüncənin yaşadığı yerdir. Bu təşkilatın başında Rəhim Hüseynzadə kimi bir adamın dayanması, onun sözə, düşüncəyə, milli yaddaşa nə qədər həssas yanaşdığını göstərir. O, bir təşkilatı deyil - bir inancı, bir mübarizə yolunu təmsil edir.

Bu gün o, qalib gəlmiş bir fikrin adamıdır. Bəlkə də o, siyasi tribunalarda qışqıranlardan deyil. Amma onun hər cümləsi bir tribunadır! O, səssiz qalanda da danışır - çünki onun susqunluğu belə mövqedir. Rəhim Hüseynzadə - sükutun sədası, millətin nəfəsi, qələmin vicdanıdır. O, sözün əsgəri deyil - sözün generallarındandır!

**Əflatun Amaşov,**
**Azərbaycanın**
**Əməkdar Jurnalisti**


آذربایجان دموکرات فرقه سی
Azərbaycan Demokrat Firqəsi
فرقه دموکرات آذربایجان

**Rəhim Məmməd oğlu Hüseynzadə**

**75**

*Azərbaycan Demokrat Firqəsi rəhbərlərinin milli mübarizə yolunu ləyaqətlə davam etdirən, təşkilatın adını daim uca tutan, S.C.Pişəvəri yolunun davamçısı, ictimai xadim, ADF MK-nın 7-ci siyasi rəhbəri*

**ADF MK-nın Fəxri Diplomu ilə**
**TƏLTİF EDİLSİN**

*Azərbaycan Demokrat Firqəsi*
*Mərkəzi Komitəsi:* *Professor Kazimi P.F.*

**03.03.2026-cı il**

**Güney Azərbaycanda milli-demokratik hərəkatların zirvəsi sayılan 21 Azər inqilabı, Azərbaycan Milli Hökuməti S.C.Pişəvərinin adı ilə sıx bağlıdır. Onun həyatı, azadlıq yolunda göstərdiyi dözüm və mətanət sonrakı nəsillər üçün örnək olaraq qalır.**

# AZƏRBAYCAN DEMOKRAT FİRQƏSİNİN YARADICISI VƏ GÜNEY AZƏRBAYCAN MİLLİ HƏRƏKATININ LİDERİ

## *SEYİD CƏFƏR PİŞƏVƏRİNİN HƏYATI VƏ SİYASİ FƏALİYYƏTİ*

Seyid Cəfər Mir Cavad oğlu Pişəvəri (Cavadzadə) 1892-ci il avqustun 26-da (hicri tarixlə 1313-cü il səfər ayının 13-də) Azərbaycanın Güneyində, Xalxal mahalının Zeyvə (farscası: Zaviyeye sadat - seyidlər Zeyvəsi) kəndində əkinçi ailəsində dünyaya göz açmışdır. O zaman 50 ailədən ibarət olan Zeyvə kəndinin sakinləri əsasən seyidlərdən ibarət olduğundan bu kəndə xalq arasında «Seyidlər Zeyvəsi» deyilir.

Seyidlər Zeyvəsi Ərdəbil əyalətinə daxildir. Əsrarəngiz təbiətli Zeyvə üç tərəfdən çoxda uca olmayan dağ və təpələr, qismən meşəliklə əhatələnib. Bu sətirlərin müəllifi 2002-ci ildə Zeyvə kəndini ziyarət etmək şərəfinə nail olmuşdur. Orada olarkən öyrənə bildik ki, ata babası Kəlbəlaye Mir Yəhya və onun oğlu (S.C.Pişəvərinin atası) Mir Cavad ağa mahalda yaxşı tanınan Seyid Mir Əzizli tayfasındandır ki, bu tayfanın bir qolu da S.C.Pişəvərinin anası Seyid Səkinə xanımın nəsil şəcərəsi ilə məşhur Təbatəbailər nəsli ilə əlaqələnir.

Kənd ağsaqqallarının etirafına görə S.C.Pişəvərinin ulu balası Kəlbəlayi Mir Yəhya ağa dini təhsil almış, halal, kasıb-kusuba əl tutan və kəndin hörmətli adamlarından olmuşdur. Mir Cavad 20 yaşında olarkən qonşu Kivi kəndindən, seyid nəslindən olan Seyid Səkinə xanımla ailə qurur. Doğularkən tələf olmuş iki uşağı nəzərə almasaq, Seyid Səkinədən üç oğlan: Mir Cəfər, Mir Xəlil, Mir Səlim və iki qız: Seyid Cavahir (Rüxsərə), Seyid Suğra dünyaya gəlmişdir.

Ölkədəki özbaşınalıq, dövlət məmurlarının zorakılığı və iqtisadi çətinliklər minlərlə güneyli ailələr kimi Cavadzadə ailəsini də 1905-ci ilin martında doğma kəndini tərk edib Azərbaycanın Quzeyinə - Bakıya köçmək zorunda qoymuşdur.

1905-ci ilin Novruz bayramı ərəfəsində Vətənin o tayından bu tayına köç edən Mir Cavadın altı nəfərdən ibarət ailəsi iki ayadək Əmircan kəndindəki həmyerlisinin evində yerləşdikdən sonra qonşu kənddə - Bülbülədə məskunlaşır. S.C.Pişəvəri ilk ibtidai təhsilini Bülbülə məktəbində alır (hazırda həmin təhsil müəssisəsi 79 saylı orta təhsil məktəbidir).

Bülbülədə təhsil alarkən S.C.Pişəvəri öz biliyi, davranışı və əməksevərliyi ilə məktəb kollektivinin diqqətini özünə cəlb edə bilir. Ailəsinin maddi güzəranının ağırlığı ilə bağlı S.C.Pişəvəri erkən yaşda əmək fəaliyyətinə başlayır. O, məktəbin təsərrüfat işlərində çalışmaq haqda öz xahişini məktəb müdiriyyətinə çatırır və alınmış müsbət cavab onu çox sevindirir. Sonralar öz xatirələrində etiraf etdiyi kimi, «məktəbin zəngini vurur, dərsdən sonra sinif otaqlarını təmizləyir, pəncərə şüşələrini, stul və masaları təmizləyir». Bülbülədəki məktəbi bitirdikdən sonra xeyirxah insanların maliyyələşdirdiyi «İttihad İraniyan» məktəbinə daxil olur. Şagirdləri əsasən güneyli uşaqlardan ibarət olan bu məktəbdə oxuyanlara ehtiyacları olduqda paltar, dərs ləvazimatı almaqda Hacı Zeynalabdin Tağıyev, Məhəmmədəli Tərbiyət və başqaları köməklik göstərmişlər. S.C.Pişəvəri bu yardımı alan şagirdlər sırasında olmuşdur. «İttihad» məktəbini əla və yaxşı qiymətlərlə başa vuran S.C.Pişəvəri iki illik pedaqoji məktəbə daxil olur



və bütün boş vaxtlarında ardıcıl olaraq mütaliə ilə məşğul olur. Tarix, ədəbiyyat, fəlsəfə və coğrafiya elmləri özünün yazdığı kimi, onu daha çox cəlb edirmiş.

Pedaqoji məktəbi bitirdikdən sonra təyinatla Xırdalandakı məktəbə müəllim göndərilir. Xırdalanda pedaqoji fəaliyyətlə məşğul olan S.C.Pişəvəri kirayə qaldığı evin bir otağını savadsızlığı ləğv etmə kursu üçün istifadə edir. Həmin kursun axşam bölməsinə yaşlıları da cəlb edə bilir. S.C.Pişəvəri pedaqoji fəaliyyətlə yanaşı jurnalistikaya böyük meyl göstərir. O zaman təkcə Bakıda çap olunan müxtəlif məsləkli mətbuatla yanaşı, İranda, Cənubi Qafqazda və Rusiyada nəşr olunan qəzet və dərgilərin çoxu onun gündəlik mütaliəsinin mühüm hissəsini təşkil etmişdi. Bakının o zamankı siyasi mühiti, görkəmli siyasi xadimləri, ədiblərin fəaliyyəti, müxtəlif yönlü siyasi, elmi, bədii dərnəklərin, cəmiyyət və partiyaların varlığı - bütün bunların gənc Seyid Cəfərin dünya görüşünün formalaşmasında, siyasi-ədəbi xadim kimi yetişməsində böyük təsiri olmuşdur.

S.C.Pişəvəri gənclik illərində mübarizə meydanına əvvəl müəllimlik, sonra isə jurnalistlik fəaliyyəti ilə atılır. İlk məqalələrini Məhəmmədəmin Rəsulzadənin nəşr etdiyi «Açıq söz» qəzetində çap etdirir. Müxtəlif siyasi dərnək, cəmiyyət və firqələrə yaxınlaşır. Əvvəl İran sosial-demokrat partiyasının məramına qoşulan S.C.Pişəvəri Rusiyadakı 1917-ci il çevrilişlərindən sonra Nəriman Nərimanovun yiyələndiyi məfkurəyə köklənir. O da N.Nərimanov kimi millətinin nicatını Moskvadan, Lenindən umanlar sırasına keçir. 20-ci illərin sonunadək bu məfkurə ilə yaşayır və mübarizə aparır. O, kommunist məzmunlu «Ədalət» Partiyasının, sonra isə İran Kommunist Partiyasının tanınmış simalarından olur. «Azərbaycan Cüze Layənfək İran» qəzetinin redaktoru olarkən azərbaycançılıqdan bütöv irançılığa meyillənir. Adı çəkilən qəzetin səhifələrində S.C.Pivəşərinin (Cavadzadənin) məqalələrini oxuyarkən Güney Azərbaycan İranın ayrılmaz hissəsi hesab edilir və onun taleyinin həllini İranın bütövlüyü kontekstində görür.

S.C.Pişəvərinin siyasi fəaliyyətinin ilk 10 ilində (1917-1927) kommunist məfkurəli bir ziyalı kimi sovetlərin köməkliyi ilə Şərqin əzilən xalqlarının (o cümlədən İrandakı xalqların) azad olacağına, xalqının «sosializmin xoşbəxt günlərinə» qovuşacağına inanırdı. Bu inam başqa milli ruhlu kommunist mübarizlər kimi S.C.Pişəvərini də bir müddət öz orbitində saxlaya bilmişdi.

1920-ci ildə Gilan inqilabçılarını meydanda tək qoyan, 1921-ci ildə İranın irticaçı dövləti ilə «Dostluq və Qardaşlıq haqda Moskva müqaviləsi»-ni bağlayan Sovet Rusiyasının ikibaşlı oyunları İranın demokratk qüvvələri sırasında S.C.Pişəvərinin də tərz-təfəküründə dəyişikliyin rüşeymini qoyur. Millətini sevən Nəriman Nərimanovun heç bir əsaslı səbəb olmadan Bakıdan uzaqlaşdırılıb, Moskvaya «böyük» vəzifəyə aparılması və 1925-ci ildə onun müəmmalı ölümü S.C.Pişəvərini daha artıq narahat edib sarsıtmışdı.

1930-cu ilin dekabrında Tehranda «dövlətə qarşı pozuculuq» ittihamı ilə həbsə alınmış S.C.Pişəvərinin istintaq zamanı müstəntiqin suallarına verdiyi cavablar göstərir ki, Sovet rəhbərliyinin bir sıra əməlləri S.C.Pişəvəridə ideoloji depressiya yaratmışdı. 20-ci illərin sonunda tutduğu siyasi-ideoloji yoldan başqa xəttə, qeyri-kommunistlik - demokratlıq xəttə keçid fikri yaratmışdı. Həbsə alınarkən müstəntiqin: «Siz kommunistlik əqidəsində qalırsızmı» sualına S.C.Pişəvəri: «Əvvəlki cavablarımda da demişəm, xeyr, daha mən bu əqidədə deyiləm» cavabını verir.

Bu etiraf S.C.Pişəvərinin keçmişdəki fəaliyyətində buraxdığı səhvlərə bir işarə idi. V.Q.Belinski yazır ki, «səhvi etiraf etmək mənəvi yetkinliyin əlamətidir». İnsan olan kəs (o cümlədən, siyasi xadimlər) öz əməli fəaliyyətlərində tam ideal, səhvsiz, qüsursuz ola bilməz. Bu hər kəsdə az və çox təzahür edən təbii və psixoloji cəhətdir. Ömrünü xalqının azadlığına və xoşbəxtliyinə həsr etmiş Nərimanov kimi dahi şəxsiyyət can-başla xidmət etdiyi məramın xalqı haqqında düşündüklərini vermədiyindən məyus olduğunu deməsi əslində mübarizə yollarında buraxılmış səhvlərin onun tərəfindən etirafı idi. Oğluna vəsiyyət xarakterli məktubunda N.Nərimanov yazırdı: «Əziz oğlum! Əgər mənim həyatımı araşdırsan, sən əmin olacaqsan ki, mən 1925-ci ilədək başqaları üçün yaşamışam. Bəs sonra?.. Bəlkə də sən bu sətirləri oxuyan vaxt bolşevizm olmayacaq.. əsl işi əldən buraxmışıq». İ.V.Stalinə ünvanladığı 70 səhifəlik məktubda isə uğrunda varlığını qoyduğu sovet quruluşunun artıq özünü doğrultmadığını və uçuruma məhkumluğundan danışır. «Qabaqcadan demək olar ki, biz uçurumun kənarındayıq».

1920-ci ilin payızında Gilan əyalətində baş vermiş «Cəngəlilər» hərəkatının məğlubiyyətindən sonra əvvəl İsfahana, sonra isə Tehrana gələn S.C.Pişəvəri rejim əleyhinə mübarizəsindən əl çəkmir. O, köhnə dostu Seyid Məhəmməd Dehqanla birlikdə 1922-ci ilin yanvarında (1300-cü ilin dey ayında) «Həqiqət» adlı qəzeti çap etdirir. «Həqiqət» o zamankı İranın siyasi, ictimai, iqtisadi həyatındakı acı həqiqətləri xalqa çatdırmaqda önəmli rol oynamışdır. «Həqiqət»in ömrü uzun olmamışdı. Onun səhifələrində xalqı oyadan və həqiqətləri deyən yazılar çox olduğundan o cəmi 6 ay çap olunmuşdu. 1922-ci ilin iyul ayında 106-cı nömrədən sonra «Həqiqət»in nəşri dövlət tərəfindən yasaq edilmişdi.

Rza xan şahlıq taxtına sahib çıxdıqdan sonra İranda mütərəqqi qüvvələrə qarşı geniş miqyaslı hücum başlanır. Belə bir şəraitdə sovetlərin Rza şah rejiminə qarşı loyal münasibəti, İranla 1921, sonra isə 1927-ci ildəki bağlaşmalar, antişah qüvvələrə sovetlər tərəfindən hər cür yardımın kəsilməsi və s. İranın mütərəqqi qüvvələri sırasında məyusluq və çaşqınlıq yaratdı. Vəziyyəti aydınlaşdırmaq məqsədi ilə 1925-ci ildə S.C.Pişəvəri Bakıya, sonra isə Moskvaya yollanır. O, bu səfərdə sovetlərdən yardım alacağına ümid bəslədiyini deyir. Lakin onun bu ümidlərini nə Bakı, nə də Moskvadakı kommunist məmurlar doğrultmurlar. S.C.Pişəvərinin sonrakı illər kommunistlik məfkurəsindən nə üçün uzaqlaşdığının səbəblərini istintaq materiallarından və xatirələrindən öyrənmək mümkündür.

**(Davamı 3-cü səhifədə)**

# AZƏRBAYCAN DEMOKRAT FİRQƏSİNİN YARADICISI VƏ GÜNEY AZƏRBAYCAN MİLLİ HƏRƏKATININ LİDERİ

## *SEYİD CƏFƏR PİŞƏVƏRİNİN HƏYATI VƏ SİYASİ FƏALİYYƏTİ*

**(Əvvəli 2-ci səhifədə)**

S.C.Pişəvəri «Qəsr-Qacar» adlanan zindana düşənədək o, rejimin xəfiyyələri tərəfindən artıq 4 dəfə qısa müddətli həbs edilmişdi. Onun siyasi ittihamla son dəfə həbsi 1930-cı il dekabrın 24-də olmuşdur. O, ancaq 1941-ci ilin sentyabrında zindanın ağır və dözülməz mühitindən can qurtara bilmişdi. On ildən çox «Qəsr-Qacar» zindanında keçirdiyi dəhşətli günləri və orada baş verənləri S.C.Pişəvəri sonralar «Ajir»də «Zindan xatirələri dəftərindən» başlıqlı çox səhifəlik yazıda ətraflı nəql etmişdi.

Müttəfiq qoşunlarının İrana daxil olması, Rza şahın ölkədən qaçması onun yaratdığı diktatura rejimini laxlatdı, siyasi məhbuslar, kütləvi şəkildə həbs edilmiş günahsız insanlar azadlığa çıxdılar. S.C.Pişəvəri azadlığa çıxmış vətənpərvərlər sırasında idi. O, azadlığa çıxdığı ilk gündən siyasi fəaliyyətini davam etdirir. İlk günlərdə İran Xalq Partiyasının (Tudənin) özəyini qoymaqda fəal iştirak edir, hətta partiyanın ilk müvəqqəti məramnaməsini hazırlayanlardan biri də məhz S.C.Pişəvəri olur. Sonralar Tudə Partiyası rəhbərliyinin fəaliyyətində bir sıra prinsipial məsələlərlə razılaşmıyan S.C.Pişəvəri Tudədən uzaqlaşır. Partiyanın proqramında milli məsələnin qoyulmaması, İranın çoxmillətli ölkə olmasının etiraf edilməməsi, bir çox bolşevik prinsiplərinin olduğu kimi qəbul edilməsi: fəhlə sinfinin hegemonluğu, sinfi mübarizə, mülkiyyət məsələsi, aqrar-kəndli məsələsinə az diqqət ayrılması və s. S.C.Pişəvərini Tudədən uzaqlaşdıran səbəblər sırasında olmuşdur.

S.C.Pişəvərinin siyasi fəaliyyətini mətbuatdan kənar təsəvvür etmək çətindir. Cəmiyyəti istiqamətləndirməkdə və onu başlıca hədəfə yönəltməkdə maariflənmə ilə yanaşı, mətbuatın rolunu S.C.Pişəvəri hələ gənc yaşlarından anlamışdır. Zindana düşənədək o bir çox qəzetlərin «Açıq söz», «Azərbaycan cüze layənfək İran», «Sosial-demokratı» «Hürriyyət», «Yeni fikir», «Kəndçi», «Yeni yol», «Cəngəl», «Həqiqət» və s. qəzetlərin əməkdaşı və çoxunun da redaktoru olmuşdur. Mətbuat S.C.Pişəvərinin ömrünün sonunadək onun mübarizəsində söz silahı, qələm silahı olmuşdur. S.C.Pişəvərinin keçdiyi mübarizə yolunu və həyatını izləyən hər bir kəs onun mətbuala sıx bağlılığını görə bilər. Bu mənada mətbuat, o cümlədən «Ajir» qəzeti S.C.Pişəvəri həyatının və mübarizəsinin bir parçası olmuşdur desək, yanılmarıq.

Pəhləvi sülaləsinin hakimiyyətdə olduğu illərdə (1925-1979) İran Şura Məclisi tarixində 14-cü çağırış məclisə seçki kampaniyası qədər gərgin, qarşıdurmalı, çox fraksiyalı məclis olmamışdı. 14-cü Məclisə seçki kampaniyası 1322-ci il Xordad ayının son həftəsində (1943-cü ilin iyununda) start götürmüş, 1323-cü ilin (1944-cü il) yayında başa çatmışdı. Məclisdə mövcud olmuş 136 deputat kürsüsü uğrunda 800 namizəd iştirak etmişdir ki, bunlar da ən azı 6-7 fraksiyanı təmsil edirdilər. Təbriz şəhər əhalisinin vətənsevər və demokratik qüvvələri tərəfindən Seyid Cəfər Pişəvərinin də namizədliyi 14-cü çağırış Şura Məclisinə irəli sürülmüşdü. S.C.Pişəvərinin mandatı Məclis vəkillərinin toplantısında müzakirə olunan zaman toplantıya sədaqət etmiş Əmir Teymur Klali başda olmaqla Sərtipzadə, doktor Tahiri, Əmirnösrət İskəndəri, Siqətulislami, Əli Eqbol, Dəşti, Camal İmami və bir neçə nəfər başqa şahpərət deputat S.C.Pişəvərinin mandatını ləğv etmək üçün Məclisdə deputatlar arasında əvvəlcədən yetərincə təbliğat və pozuculuq işi aparmışdılar. Onlar iddia edirdilər ki, S.C.Pişəvəri Təbrizdə seçilən zaman guya orada «ciddi əyintilər, qeyri-qanuni işlər olub» və s. Nəticədə bu bəhanələrlə S.C.Pişəvərinin deputatlıq mandatı 100 nəfərdən əleyhinə 50, lehinə 47 səs verilmiş, 3 nəfər bitərəf qalmaqla rədd edilmişdi.

14-cü çağırış İran Şura Məclisindəki olaylar S.C.Pişəvəridə belə bir fikrin tam və qəti şəkildə formalaşmasına inam yaratmışdır ki, Azərbaycan Tehrandan «mərhəmət» gözləməməli, dərdlərinə özü əlac etməlidir. Şeyx Məhəmməd Xiyabaninin «Elə çıraq yandırmaq lazımdır ki, ixtiyarı öz əlimizdə olsun» sözlərini, özünə sərməşq götürən S.C.Pişəvəri azadlıq çırağını yandırmaq üçün Azərbaycana - Təbrizə üz döndərdi.

Azərbaycandakı durum, hərəkat fəallarının, azadlıq istəyən qüvvələrin, istək və tələbi ilə Pişəvəri 1945-ci ilin yayında həmişəlik olaraq Təbrizə gəlir. O, əməli işə başlamamışdan əvvəl Təbrizdə və bölgələrdəki (Ərdəbil, Zəngan, Sərab, Urmiya, Xoy, Mərənd və s.) durumla, xalqın istək və tələbləri ilə bir daha yaxından tanış olur. Hərəkat fəalları, «Ajir məktəbi»nin yetişdirdiyi kadrlarla, inqilabi mübarizə yolunda ağır sınaqlardan keçmiş insanlarla, ağsaqqallarla, vətənpərvər ruhanilərlə geniş müzakirə və məsləhətləşmələr aparır. Bu haqda onun və silahdaşlarının xatirələrində xeyli qeydlər və yazılar vardır.

1945-ci ildə Azərbaycandakı sosial-siyasi və iqtisadi durum elə bir həddə gəlib çatmışdı ki, millət rejimin zorakılığına müqavimət göstərməkdən başqa çıxış yolunun qalmadığını görürdü. Belə bir şəraitdə xalqın mübarizəsinə başçılıq edə bilən və onu əsas hədəfə yönəltməyi bacaran bir təşkilatın yaradılmasına ehtiyac duyulurdu. Belə bir təşkilat S.C.Pişəvərinin başçılığı ilə 1945-ci ilin sentyabrın 3- də (1324 şəhrivərin 12-si) yaradılmış Azərbaycan Demokrat Firqəsi olur.

S.C.Pişəvərinin başçılığı ilə firqə qısa zaman kəsiyində böyük işlər gördü: İran Xalq Partiyasının Azərbaycandakı təşkilatları və Azərbaycan Həmkarlar Şurasının bütün üzvləri 1945-ci il sentyabrın 12-də öz yığıncaqlarında könüllü olaraq ADF sıralarına daxil olduqlarını bildirdilər; 2-3 oktyabrda ADF-nin ilk qurultayı keçirildi; 20 noyabrda Ümumi Azərbaycanı əhatə edən Xalq Konqresi çağırıldı; Azərbaycan Milli Məclisinə seçkilər keçirildi; 12 dekabr 1945-ci ildə Milli Məclis Azərbaycan xalqı adından fəaliyyətə başladı, S.C.Pişəvəri baş nazir seçildi və Azərbaycan Milli Hökuməti təşkil edildi. Beləliklə, Güney Azərbaycanda xalq hərəkatının zirvəsi sayılan 21 Azər inqilabı (nehzəti) zəfərlə başa çatdı; Tehranın əsarətində olan Azərbaycan əyalətləri Milli Hökumətin bayrağı altına keçdi və s…

S.C.Pişəvərinin başçılıq etdiyi hökumət cəmi bir il yaşadı. Bu bir ildə Milli Hökumətin gördüyü işləri və icra etdiyi tədbirləri xarici müəlliflərin yazdıqları kimi «Rza şah rejimi heç 20 ildə də icra edə bilməzdi».

Azərbaycan Milli Hökumətinin süqutu əlamətləri baş nazir Əhməd Qavamüs-səltənənin 1946-cı ilin mart ayında Moskvaya olan səfərindən sonra sezilməyə başladı. Ə.Qəvam İranın şimalındakı neft yataqlarının kəşfiyyatını və çıxarılması icazəsini sovetlərə vermək müqabilində iki mühüm şərti onların qarşısında qoymuşdu: 1) Sovet hərbi kontingentinin 1946-cı il martın sonunadək Güney Azərbaycanı tərk etməsi; 2) Güney Azərbaycan məsələsinin İranın daxili işi hesab edilməsi. Moskva ilə Tehranın sövdələşməsi baş tutdu. Bu Güneydəki hərəkata qarşı Moskvanın açıq xəyanəti idi. Həmin tarixdən S.C.Pişəvəriyə qarşı ardıcıl təzyiqlər başlandı.

Sovetlərin növbəti xəyanətini və gedilən «dalanın» getdikcə daraldığını görən S.C.Pişəvəri 1946-cı il iyunun 16-da Azərbaycan Milli Hökumətinin başçısı vəzifəsindən istefa verdi. Əslində bu istefa milli-demokratik hərəkatın böyük öndərinin sovetlərin sonrakı oyunlarının iştirakçısı olmamaq niyyətindən irəli gəlsə də, sovet kəşfiyyatı bütün çirkin vasitələri işə salıb (hədə, qorxu, gizli səsini yazmaq, terror və s.) onu çıxılmaz döngəyə salmağa müvəffəq oldu.

5 dekabr 1946-cı ildə Təbrizdəki sovet vitse-konsulunun M.C.Bağırova yolladığı məlumatda göstərilirdi ki, «Bu gün radio ilə Pişəvəri xalqa müraciət edib, onları Tehran irticasına qarşı mübarizəyə çağırdı. Sabah Azərbaycan Əyalət Əncüməni yaranmış şəraiti müzakirə edib, əməli tədbirlər haqda qərar qəbul edəcək… Qərara alınıb ki, Pişəvəri sədr olmaqla Şəbüstəri, Qazı Məhəmməd, Qulamyəhya, Pənahian və Badiqandan ibarət Müdafiə Komitəsinin təsdiqini Əncümədən keçirsinlər. Təbrizdə hərbi vəziyyət elan edilib. Azərbaycanın hər guşəsindən kəndlilər ADP-yə müraciət edirlər ki, onlara silah verib cəbhəyə göndərsinlər. Bu gün Təbrizdə Azərbaycan qəhrəmanı Babəkin adını daşıyan könüllü dəstəyə yazılış başlanıb».

Güney Azərbaycandakı hərəkat üçün çox ağır olan bu günlərdə S.C.Pişəvərinin öz silahdaşları ilə birlikdə sovet rəhbərliyinə az miqdar silah istəmək haqda son xahişinin cavabsız qalmasını həyəcansız oxumaq mümkün deyil. Məktubda deyilir: «Əgər biz təslim olsaq, tarix bizi həmişə lənətləyəcək. Dünyada heç bir xalq öz qüdrətini öz əli ilə məhv etməz. Bütün xalq bizə müraciət edib öz azadlığını qorumaq üçün cəbhəyə getməyə icazə verməyimizi tələb edir».

11 dekabr 1946-cı il səhər Təbrizdəki qəzetlər xalqın S.C.Pişəvərinin ətrafında birləşib müqavimət göstərməyi və son damcı qan qalana qədər düşmənə qarşı vuruşacaqlarını yazdıqları halda, günortadan sonra qəflətən vəziyyət dəyişdi. S.C.Pişəvəri yaxın bir neçə silahdaşı ilə əvvəl Culfaya, sonra isə Naxçıvana aparıldı. Əslində «məsləhətləşmə» adı ilə Naxçıvana gətirilmiş S.C.Pişəvəri prespektivdə böyük işlər görmək niyyətlərinin və arzularının puç olduğunu, hər şeyin «dost» xəyanətinə qurban verildiyini başa düşsə də artıq gec idi, necə deyərlər iş-işdən keçmişdi.

S.C.Pişəvəri Sovet Azərbaycanında yaşadığı 6 ay müddətində Vətənə qayıtmaq, mübarizəni davam etdirmək, şəhidlərin intiqamını olmaq niyyətindən əl çəkməmişdi. Bu haqda öz fikirlərini sovet rəhbərliyinə də çatdırmışdı. S.C.Pişəvərinin təşəbbüsü ilə Hacıkənddə və Şəkidə fədailərin hərbi təlim düşərgələri bu niyyəti həyata keçirmək üçün yaradılmışdı. Bu haqda da Pişəvərinin Sovet orqanlarına ardıcıl müraciəti Kreml üçün «baş ağrısı»na çevrilmişdi. 1947-ci ilin iyunun 11-də Pişəvərinin maşın qəzası nəticəsində dünyasını dəyişməsi Sovet rəhbərliyini bu «baş ağrı»dan xilas etmiş oldu.

# MİLLİ HƏRƏKATIN SƏRKƏRDƏSİ - GENERAL PADİQAN



**SADIQ PADEQAN 1899-cu ildə Təbriz şəhərində anadan olub. Uzun və mənalı həyat yaşayıb, Xiyabani hərəkatında iştirak edib, 21 Azər hərəkatının təşkilatçılarından olub və nəhayət, 1981- ci ildə Bakı şəhərində vəfat edib. Yüksək dərəcəli siyasətçi və ictimai xadim, Azərbaycan Demokrat Firqəsinin qurucularından biri olub. Seyid Cəfər Pişəvəri dünyasını dəyişdikdən sonra, 1947-1954-cü illərdə, ADF-nin yenidən təşkilatlanması zamanında Azərbaycan Demokrat Firqəsinin sədri olub.**

Sadıq Padeqan 1920-ci ildə Şeyx Məhəmməd Xiyabani hərəkatına qoşulur və üsyan dağıdıldıqdan sonra SSRİ-yə mühacirət edib. Sonralar Moskavada ali iqtisadi təhsil alıb və 1938-ci ilə qədər Naxçıvanda kooperasiya sistemində çalışıb. Daha sonra Təbrizə geri qayıdıb.

1941-ci il avqustun 25-də SSRİ ordusu Cənubi Azərbaycana daxil olur. Bu zaman bir çox partiya və təşkilatlar yaranmağa başlayır ki, bunlardan biri, 1941-ci ilin oktyabr ayında Təbrizdə yaradılan Azərbaycan Cəmiyyəti idi. Cəmiyyəti quranlar Hacı Əli Şəbüstəri, Əli Maşınçı, İsmayıl Şəms, Hilal Nasiri və digərləri idilər. S.Padeqan 1942-ci ilin yanvar ayında yaradılmış Azərbaycan Zəhmətkeşlər Təşkilatının Mərkəzi Komitəsinin üzvü olur. 1945-ci ilin sentyabrın 6-da Tudənin Azərbaycan təşkilatının əyalət plenumunda qərara alınır ki, Azərbaycan təşkilatının bütün üzvləri Azərbaycan Demokrat Firqəsinə keçsinlər. Bunu təmin etmək üçün Sadıq Padeqan, Zeynalabidin Qiyami, Məmməd Hüseyn Burhani, Yədulla Kələntəri və Əbülhəsən Vaqifdən ibarət komissiya yaradılır.

1945-ci il sentyabrın 14-də Təbrizdə baş tutmuş görüşdə Azərbaycan Demokrat

Firqəsinin qurulması ilə bağlı Sadıq Padeqanın da üzv olduğu 14 nəfərlik Təşkilat Komitəsi yaradılır və 1945-ci ilin oktyabrın 2-də Azərbaycan Demokrat Firqəsinin birinci təsis qurultayı keçirilir. Burada ADF-nin nizamnaməsi qəbul olunur, 3 sentyabr müraciətnaməsinin müddəaları bir daha təsdiqlənir. Qurultay tərəfindən Seyid Cəfər Pişəvəri ADF Mərkəzi Komitəsinin sədri, Mirzə Əli Şəbüstəri və Sadıq Padeqan isə onun müavinləri seçildilər. ADF Mərkəzi

Komitəsinin İcraiyyə Heyətinin üzvlüyünə Seyid Cəfər Pişəvəri, Mirzə Əli Şəbüstəri, Sadıq Padeqan, Məhəmməd Biriya, Salamulla Cavid seçilirlər.

1945-ci il noyabrın 20-də Təbriz Ərk Teatrının binasında Azərbaycan Xalq Konqresi fəaliyyətə başladı. Noyabrın 21-də konqres nümayəndələrindən, seçkiləri bitirib hökuməti yaradana qədər, qərarların icrasını təmin etmək üçün Milli Heyət yaradıldı. Sadıq Padeqan da Milli Heyətə seçilən 39 nəfərdən biri olub. 1945-ci il noyabrın 27-dən dekabrın 2-ə qədər İran tarixində ilk dəfə qadınların da iştirak etdiyi azad seçkilər keçirilib. Keçirilən seçkilər nəticəsində Sadıq Padeqan səs toplayaraq Azərbaycan Milli Məclisinə Təbrizdən nümayəndə seçilib.

1945-ci il dekabrın 12-də Azərbaycan Milli Hökuməti quruldu. Elə həmin gün keçirilmiş Azərbaycan Milli Məclisinin ilk iclasında Sadıq Padeqan Milli Məclisin sədri seçilmiş Mirzə Əli Şəbüstərinin müavini təyin olundu. 1946-cı il yanvarın 15-də Azərbaycan Milli Hökumətinin Konstitusiyasının yazılması ilə bağlı 15 nəfərlik komissiya yaradılır və bu komissiyaya Sadıq Padeqan da daxil olur. 1946-cı il aprelin 28-də Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə Tehrana danışıqlar üçün gedən nümayəndə heyətinin üzvü təyin edilir. 1946-cı ildə milli- demokratik hərəkatda iştirak etdiyi üçün "Səttarxan" ordeni ilə təltif olunur. 1946-cı il avqust ayının 1-də Salamulla Cavidin rəhbərliyi ilə Hacı Mirzə Əli Şəbüstəri, Sadıq Padeqan, general Mahmud Pənahiyan, polkovnik Murtəzavi, mayor Toğraidən ibarət olan nümayəndə heyəti ilə ikinci dəfə Tehrana danışıqlara gedir.

1946-cı il dekabrın 5-də Miyana istiqamətində hücum edən şah qoşunları Azərbaycan fədailəri tərəfindən dayandırıldı. Azərbaycanın müxtəlif ərazilərindən insanlar silahlanmaq və şah qoşununa qarşı mübarizə aparmaq üçün Milli Hökumətə müraciətlər etdilər. Bundan sonra Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə Müdafiə Komitəsi quruldu. Bu komitəyə Mirzə Əli Şəbüstəri, Qazi Məhəmməd, Qulam Yəhya, Mahmud Pənahiyan və Sadıq Padeqan üzv oldular. Komitənin ilk işi Təbrizdə hərbi vəziyyət elan edib, "Babək" adlı könüllü dəstələr qurmaq oldu. Könüllü dəstələrə ilkin mərhələdə 600 nəfər üzv oldu. Bundan sonra Seyid Cəfər Pişəvəri yenidən hərbi dəstək üçün Sovet İttifaqına müraciət etdi. Lakin bu istəyi də cavabsız qaldı.

1946-cı il dekabrın 11-dən etibarən İran ordusu iri şəhərlərə girməzdən əvvəl bu yerlərdə ərbabların quldur dəstələri, eləcə də mülki geyimli jandarmalar qırğınlar törətməyə başladılar. Bu dəstələr Tehran radiosu tərəfindən "İran vətənpərvərləri" adlandırılırdılar. Dəstələrin əsas məqsədi demokratların məhv edilməsi və şah qoşununun şəhərlərə girişini təmin etmək idi. Təbriz və Azərbaycanın digər şəhərləri talanlara və qırğınlara məruz qaldılar. Azərbaycan Milli Hökuməti süqut etdi. Minlərlə insan həbs olundu. Baş verən qırğınlarda ADF üzvləri, fədailər eləcə də, tanınan şairlərdən Əli Fitrət, Sədi Yüzbəndi, Cəfər Kaşif və Məhəmmədbağır Niknam qətlə yetirildi. 1946-cı il dekabrın 14-də ABŞ və Böyük Britaniya tərəfindən dəstəklənən İran ordusu Təbrizə daxil oldu. Bundan sonra da qırğınlar və talan davam etdi. Azərbaycan Milli Hökuməti dağıldıqdan sonra Sadıq Padeqan bir neçə hökumət üzvü ilə birlikdə Sovet Azərbaycanına mühacirət edib.

Sadıq Padeqan 1947-ci ildə Seyid Cəfər Pişəvəri dünyasını dəyişdikdən sonra Azərbaycan Demokrat Firqəsinin sədri olub. 1954-cü il sentyabr ayında bu vəzifəni tərk edib və ADF-nin siyasi heyətində fəaliyyətini davam etdirib. 1981-ci ilin noyabr ayında Bakıda dünyasını dəyişib.

**Danişian Qulam Yəhya oğlu 1906-ci ildə Sərab mahalının Əskərabad (Əsgəvar) kəndində yoxsul kəndli ailəsində anadan olub. Sərab və Miyanada kəndli hərəkatının bilavasitə iştirakçısı olaraq, İranın Sərab, sonra isə Miyana şəhərlərində xalq hərəkatına başçılıq edib.**

# AZƏRBAYCAN DEMOKRAT FİRQƏSİNİN İFTİXARI - GENERAL QULAM YƏHYA



1945-ci ilin sentyabrında yenicə yaranan Azərbaycan Demokrat Firqəsinin sıralarına qoşulub, ADF-nin I qurultayında iştirak edib, Mərkəzi Təftiş Komissiyasının üzvlüyünə seçilib, Miyanada başlanan xalq hərəkatına rəhbərlik edib və hərəkatın qələbəsinə nail olub.

Qulam Yəhya 21 Azər hərəkatının rəhbərlərindən biri kimi S.C.Pişəvərinin göstərişi ilə Təbrizə gəlir, şəhərin jandarm idarəsinin alınmasında əsas rol oynayır. Milli Hökumət təşkil edildikdən sonra xalq qoşunları nazirinin müavini seçilir və Zəncan fədailərinin rəhbərliyi S.C.Pişəvəri tərəfindən ona tapşırılıb. Zəncan cəbhəsinin başçısı olduğu dövrdə Mürtəzəvi, Həsən Nəzəri və Hidayət Hatəmi ilə birlikdə Zülfüqari silahlı bandasını zərərsizləşdirib və Azərbaycan ərazisinə soxulmaq istəyən digər silahlı dəstələrin qarşısını alıb.

Zəncan fədailəri Azərbaycana durmadan hücum edən silahlı bandaların qarşısını almaqla yanaşı, Azərbaycan Milli Hökumətinə qarşı vuruşan mülkədarların torpaqlarını pulsuz olaraq kəndlilərə paylayıblar. Azərbaycan Milli Hökumətinin bir illik fəaliyyəti Azərbaycanda siyasi sakitliyin yaranması, Azərbaycan dilinin rəsmi dövlət dilinə çevrilməsi prosesində Azərbaycan fədailəri, o cümlədən, Zəncan fədailəri əsas rol oynayıblar.

Qulam Yəhya S.C.Pişəvərinin silahdaşlarından biri idi. O, bacarıqlı, ləyaqətli siyasi və ictimai xadim kimi təkcə Zəncan cəbhəsində deyil, Ərdəbil və Urmiyə şəhərlərində də fəaliyyət göstərən

fədailərlə də vaxtaşırı görüşür və Zəncan cəbhəsində gedən döyüşlər haqqında onlara məlumat verirdi. Tehran-Təbriz sazişinə əsasən Zəncan Tehrana təhvil verilir. Bununla bağlı olaraq Miyana şəhəri fədailərin mərkəzinə çevrilir, 1946-cı ilin dekabrın 10-na qədər şah qoşunlarına qarşı müqavimət göstərir.

Qulam Yəhya mühacirət illərində də Azərbaycan Demokrat Firqəsinin görkəmli rəhbərlərindən biri kimi çoxsaylı mühacirlərin Azərbaycan Respublikasında yerlərdirilməsini öz üzərinə götürür. Elə buna görə d ə Qulam Yəhya mühacirlər arasında tanınmış şəxsiyyət kimi firqənin yüksək rəhbər mövqelərindən birini tutur, 1958-ci ildən firqənin sədri seçilir və 1979-cu ilə q ədər həmin vəzifədə çalışır, ömrünün sonuna kimi firqənin fəxri sədri olur. Qulam Yəhya 2006-cı ildə Bakıda vəfat edib. Məzarı Fəxri Xiyabandadır.

# AZƏRBAYCAN DEMOKRAT FİRQƏSİNİN İNTELLEKTUAL MÜBARİZƏ MƏRHƏLƏSİ

## ÇEŞMAZƏR MİRQASIM MİKAYIL OĞLU (Çeşmazərin şəxsi təqdimatından)

**Mən M.M.Çeşmazər 1920-ci ilin may ayında Azərbaycan SSR Şamxor (indiki Şəmkir) rayonunun Morul kəndində kəndli ailəsində anadan olmuşam. 1928-1938-ci illərdə orta məktəbdə oxumuşam. 1938-ci ilin iyun ayında ailəmlə birlikdə yaşamaq üçün İrana getdim. Həmin ilin iyun-oktyabr aylarında Cənubi (İran) Azərbaycanın Urmiya şəhərində müxtəlif işlərdə fəhləlik edirdim. Urmiya və Salmas şəhərləri arasında hərbi telefon-teleqraf xəttində fəhlələrin tətili ilə əlaqədar İranın şah dövlətinin siyasi polisi 1938-ci il oktyabr ayının 9-da (1317 hicri şəmsi ilində) məni də həbs etdi (Mən də o xəttdə fəhlə işləyirdim).**

1938-ci ilin oktyabrından 1941-ci ilin sentyabrın sonuna qədər siyasi məhbus olaraq əvvəlcə Urmiya şəhərində, sonra Tehranda müvəqqəti və mərkəzi (Qəsri Qacar) adlı həbsxanalarda saxlandım - şah hökuməti əleyhinə inqilabi mübarizə üstündə.

1941-ci il avqustun 25-də Sovet qoşunları İrana daxil olandan sonra sentyabrın son günləri Tehrana gəldikdə digər siyasi məhbuslarla birlikdə mən də həbsxanadan azad oldum. 1941-ci il sentyabrın son günlərində Tehranda İranın bir qrup görkəmli inqilabçıları ilə birlikdə mən də marksist inqilabçı partiya olan İran Xalq Partiyasını (Hizbi Tudeyi İranı) yaratmaqda iştirak etdim.

Mənim partiya stajım 17.10.1941-ci ildən başlayır. Mən oktyabr 1941-ci ildən avqust 1959-cu ilə qədər 18 il tamam partiya işində işləmişəm. Oktyabr 1941-ci ildən sentyabr 1945-ci ilə qədər İran Xalq Partiyası Urmu vilayət komitəsinin üzvü, Təbriz vilayət komitəsinin üzvü, Sərab rayon komitəsinin birinci katibi və Azərbaycan Əyalət komitəsinin prezidium üzvü olaraq partiya işində işləmişəm. Partiya konfranslarının nümayəndəsi olmuşam. 1944-cü ilin avqustunda İran Xalq Partiyasının I qurultayında nümayəndə olaraq iştirak etmişəm (Tehran şəhərində).

7 sentyabr 1945-ci ildən Azərbaycan Demokrat Partiyasının üzvü olaraq bu partiyanın işində və 12 dekabr 1945-ci ildə yaranmış Azərbaycan Milli Hökumətinin (inqilabi hökumətin məsul vəzifələrində işləmişəm. ADP-nin Təbriz şəhər komitəsinin üzvü, yanvar 1946-cı ildən ADP Mərkəzi Təftiş Komissiyasının üzvü olmuşam. 2.4.10.1945-ci ildə Təbriz şəhərində ADP-nin I qurultayında nümayəndə olaraq iştirak etmişəm. Noyabr 1945-ci ildə Təbriz əhalisi tərəfindən Azərbaycan Xalq Konqresinə nümayəndə seçildim və bu müəssisan məclisində iştirak etdim. Cənubi (İran) Azərbaycanında silahlı inqilabi hərəkat günləri (10.12.1945) mən dekabrın 10-dan 1946-cı il yanvarın ortasına qədər Təbriz şəhəri üzrə partizan (fədai) dəstələrinin komendantı (qala bəyisi-dejbanı) oldum.



1946-cı ilin yanvar-iyun aylarında Cənubi Azərbaycanın inqilabi xalq hökumətinin Nazirlər Sovetinin sədri (baş vəziri) S.C.Pişəvərinin köməkçisi (referenti) vəzifəsində işləmişəm. 1946-cı ilin aprel-dekabr aylarında Cənubi Azərbaycan Radio Komitəsinin sədri olmuşam.

1947-ci ilin martından SSRİ-də siyasi pənahəndə olmuşam. O tarixdən Bakıda yaşayıram. Mart 1947 - iyul 1951 Azərbaycan KP MK nəzdində Ali Partiya Məktəbində oxumuşam. Oktyabr 1951 - oktyabr 1954-cü illərdə Azərbaycan Dövlət Universitetinin marsizm-leninizm kafedrasının aspiranturasında oxumuşam. Oktyabr 1947-ci ildən 1953-cü ilin yanvarına qədər Azərbaycan Demokrat Firqəsinin MK-nın xüsusi təbliğat komitəsinin sədri vəzifəsində işlədim.

İyun 1953 - sentyabr 1959 Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin üzvü, 1-ci (oktyabr 1954), 2-ci (1957) və 3-cü (1960) konfranslarının nümayəndəsi olmuşam. İyun 1953 - sentyabr 1954 Azərbaycan Demokrat Firqəsi MK təşkilat şöbə müdiri olmuşam. 1954-cü ilin sentyabrından 1959-cu il 7 avqusta qədər 5 il Azərbaycan Demokrat Firqəsi MK-nın 1-ci katibi (sədri) seçilmişəm və bu vəzifədə işləmişəm.

Hazırda İranlı Siyasi Pənahəndələr Cəmiyyətinin Azərbaycan şöbəsinin Mərkəzi Şurasının prezidium üzvüyəm (1979-dan). Eyni zamanda İXP-nin Azərbaycan təşkilatı Azərbaycan Demokrat Firqəsinin (ADF) Bakı komitəsinin üzvüyəm (1981-ci ildən).

Sentyabr 1959-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuşam və 1965-ci ilin iyununda onun müalicə-profilaktika fakültəsini qurtararaq həkim ixtisası almışam.

Oktyabr 1964-cü ildən Azərbaycan SSR EA-nın Şərqşünaslıq İnstitutunda elmi işdə işləyirəm.

1981-ci il iyulun 6-da "Azərbaycan Demokrat Partiyasının yaranması və fəaliyyəti (1945-1946)" elmi işi müdafiə edib 10.02.1982-ci ildə tarix elmləri namizədi alimlik dərəcəsi aldım.

Heç bir partiya cəzam yoxdur. 1945-1946-cı illərdə Cənubi (İran) Azərbaycanında milli-azadlıq və demokratik hərəkat vaxtı iki dəfə təltif edilmişəm:

1. Cənubi Azərbaycanda xalq hakimiyyəti yaranması uğrunda silahlı mübarizədə fəal iştirak etdiyimə görə (oktyabr-dekabr 1945) 20 min nəfərlə birlikdə məni də Azərbaycan Milli Məclisi (Xalq Məclisi) 1946-cı ilin martında "21 Azər" adlı inqilab medalı ilə təltif etmişdir;

2.Cənubi Azərbaycanda Azərbaycan Demokrat Partiyasının yaranmasında (03.09.1945), Xalq hakimiyyəti qurulması uğrunda siyasi və silahlı mübarizədə (oktyabr-dekabr 1945) və Azərbaycan Milli hökumətinin (xalq hakimiyyətinin) inqilabi demokratik tədbirlərinin həyata keçirilməsində fəal iştirak etdiyinə görə 10 nəfərlə birlikdə Azərbaycan Əyalət Əncüməni və Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsi məni də "Səttarxan" adlı inqilab ordeni ilə təltif etdi (03.09.1946).

1986-cı il oktyabrın 31-də SSRİ Ali Soveti Prezidiumu adından "Əmək Veteranı" medalı ilə təltif edilmişəm.

Atam Çeşmazər Seyid Mikayıl Seyid Eyvaz oğlu Cənubi Azərbaycanın Mərənd mahalının Kəhriz Yekan kəndindəndir (1884-1948) 1913-1938-ci ilərdə Rusiyada, SSRİ-də yaşayıb. 1938-1948-ci illərdə Urmu və Təbrizdə yaşayıb. Fəhlə olub. Təbrizdə (1948) vəfat edib.

Anam Əzətxanım (1901-1977). Hazırda 2 bacım və 2 qardaşım Bakıda yaşayır. 1979-cu ilin mayından evliyəm. Qadınım Elmira İbrahimova Qurban qızı (Sovet vətəndaşıdır).

**28.01.1987. İmza: Çeşmazər.**
**(2000-ci ildə Bakı şəhərində dünyasını dəyişib)**

Söhrab Tahir



## ÇÖPÜ DƏ İKİYƏ BÖLMƏRƏM DAHA

Dərdi dərd olmuşdu elində mənə,
Ağladım bir naşı güləndə mənə.
Heç kəs ağlamasın öləndə mənə,
Mən heç vaxt, heç zaman ölmərəm daha.
Azad qardaşım var, onunla xoşam,
Mən gərək sahili sahilə qoşam.
İki bölünməkdən elə qorxmuşam,
Çöpü də ikiyə bölmərəm daha.
Dənizlər, dəryalar mənə dayazdır,
Ən dərin bir çay var, o da Arazdır,
Mənə görüş verin Azadlıq azdır,
Görüşsəm, ayrılmaq bilmərəm daha.
Mənim səadətim hardasa bitdi,
O hasad gəlmişdi, hasad da getdi.
Mənə nə etdisə, səadət etdi,
Bədbəxt səadətə gülmərəm daha.

Balaş Azəroğlu



## İNQİLAB ŞAİRİYƏM

Mən nə şah, mən nə sultan, nə yaraşıq, nə zinət,
Nə əfsanə, nə mələk, nə saray, nə səltənət,
Nə qədim əsrləri yada salıb ağlayan,
Nə ömrünü qəzələ, mərsiyəyə bağlayan,
Nə dövrün hakiminə şer yazıb pul alan,
Nə cəlladlar önündə həya üçün alçalan,
Nə peymanə, nə saqi, nə şərab şairiyəm,
Azadlığın carçısı inqilab şairiyəm.
Mən əyilib hakimin əllərindən öpmədim,
Şerimi çiçək kimi ayaqlara səpmədim.
Nə aciz bir bəndəyəm, nə satılmış bir qulam,
Nə saray məddahıyam, dərgahlardan qovulam.
Mən ellərin oğluyam, ellər böyütmüş məni,
Şerim eldən alıbdır bu ilhamı, qüvvəni,
Mən nə şam, nə pərvanə, nə rübab şairiyəm,
Azadlığın carçısı inqilab şairiyəm.
Mənim könül dəftərim bənzəyir gülüstana,
Onda yer verilməmiş qarlı qışa, tufana.
Bir bahar ətri vardır hər şerimdə, sözümdə,
Baharın həsrətilə yaşayıram özüm də.
Mən əl açıb göylərdən diləmədim azadlıq,
Mənim arxalandığım onlardan daha artıq.
Ölkələr həsrət çəkən afitab şairiyəm,
Azadlığın carçısı, inqilab şairiyəm.

**Ərdəbil, 1941**

# ƏMİRƏLİ LAHRUDİ - ADF RƏHBƏRİ İNQİLABLARIN QOVŞAĞINDA



**12 il əvvəl dekabrın 5-də 21 Azərin ildönümünü qeyd etmək üçün ADFnin akt zalına toplaşmışdıq. Ailəsindən aldığımız acı xəbəri sakitcə, tədbirin başa çatmasını gözlədik. Sonda bildirdik ki, çox təəssüf, mərasimin bədii hissəsi olmayacaq, Əmirəli Lahrudi dünyasını dəyişib. Bu xəbər hamımız üçün sarsıdıcı idi. Ona görə yox ki, Ə.Lahrudi təkcə firqənin və cəmiyyətin rəhbəri deyildi, o zalda toplaşan yüzlər üçün dogma, əziz, boynunda yaxşılıqların minnəti olan insan idi.**

Sakitcə qəbiristanlığa getdik, dilimizdə olanları ürəyimizə gətirdik. Nə qədər xoşbəxt insan imiş. Yüzlərlə insanı ev-eşik sahibi etmiş, işlə bağlı qayğılarını həyata keçirmiş və sair…

"Qonşularına" diqqət yetirdik, haqq dünyasında olanlar sanki seçilmişlər idi - inqilabçılar, alimlər, zəhmətkeş insanlar…

Meşkinin Lahrud kəndində dünyaya gələn, Azərbaycan Demokrat Firqəsi yarandığı gündən üzvü olan, silahı ilə mühacirətə gələn, Azərbaycanın müxtəlif şəhər və rayonlarında təşkilati işlərdə rəhbər vəzifələrdə çalışan, partiya məktəblərində təhsil alan Əmirəli Lahrudi bu tayda ona görə sevilirdi ki, bütün vəzifələrin öhdəsindən layiqincə gəlirdi. İsveçdə, Almaniyada və digər ölkələrdə zəngin təcrübə məktəbi keçmişdi.

Yeri gəlmişkən, qeyd edim ki, yubilyarın Salyan şəhərində mənzil ilə təmin olunmasında da onun böyük xidməti olmuşdur. Bu gün isə söhbət ancaq onun yaxşılıqlarından, miras qoyduğu əsərlərdən gedir. Yəni, belə desək, "Azərbaycan Ruznaməsi"ndə onun yüzlərlə analitik yazıları bizə nədən və necə yazmağı öyrədir.

## Azadlıq Qəhrəmanlarının son sözləri

Mən sizə nifrət etdiyimdən nə suallarınıza cavab verəcəyəm, nədə sizdən mərhəmət diləyəcəyəm. Azadlıq qurbanı olmağımla fəxr edirəm. Söyüd budaqlarını ikiqat əymək olar, qocaman çinar ağacı isə sınar, lakin əyilməz.

**Məmmədəman Azadvətən,**
**Urmiya fədai başçısı**

Mən Azərbaycan xalqının ləyaqətli oğluyam. Budur, Azərbaycan xalqının azadlığı başıucalıqla can verəcəyəm. Mənim və yoldaşlarımın ölümü ilə azadlığın boğulacağını guman etməyin. Bizi mühakiməyə çəkib dar ağacına doğru aparan cinayətkarlıqlar xalq məhkəməsində cavab verməli olacaqlar. Bu həqiqətdir, bu şübhəsizdir.

**Dadaş Tağızadə,**
**Fədai başçısı**

Şəhidlik zirvəsinə çatmaqdan az əvvəl: - Mən biganələr nümayəndəsi olan şah əlindən aldığım dərəcələri (rütbələri) rədd edib qəhrəman Azərbaycan xalqının azad əli ilə təşkil olunmuş kiçik Xalq Qoşunlarının şərəfli dərəcəsini qəbul etməkdən şadam! Mən yenə də var qüvvəmi İran azadlığı uğrunda sərf edəcəyəm.

**Səfər Sultanizad,**
**Marağa fərmandehinin**
**müavini**

Mən Tehran nümayəndələrimnin suallarına heç bir cxavab verməyəcəyəm, mənim cavablarım sizə bəllidir. Mən sizin murdar üzünüzü görmək istəmirəm…1911-ci ildə siz mənim atamı da bu cür öldürmüsünüz. Çünki o da xalqımızın azadlığı yolunda Səttarxan dəstəsində vuruşurdu. Məni də öldürürsünüz. Lakin mən sizə yalvarmayacağam. Amma yadınızda saxlayın ki, böyük intiqam günü gələcəkdir. O gün Siz Ədalət Məhkəməsinin qabağında Azərbaycan xalqının azadxax oğullarının və qızlarının qanuni cavabını verməli olacaqlar.

**Ə.Əhməd,**
**Xoy əyalət komitəsinin**
**sədri**



Əli Tudə

## Gərək mən Təbrizə qayıdan zaman

Mən öz qardaşıma mehman gələndə,
Bir qələm, bir dəftər, bir can gətirdim.
Dağların döşünü toplar dələndə,
Bir ləkə düşməyən vicdan gətirdim.

Mən onu Günəşdən təmiz saxladım,
Canımdan, gözümdən əziz saxladım,
Bu kiçik qəlbimdə dəniz saxladım,
Bir xilqət görmədi, pünhan gətirdim.

Ucuz tutmasınlar bu sovqatımı,
Hissimi, duyğumu, ehsasatımı.
Mən öz varlığımı, öz həyatımı,
Doğma qardaşıma qurban gətirdim.

Ürək daş deyildir, bir parça ətdir,
Bəs onu yaşadan hansı qüdrətdir?
Bir arzu, bir ümid, bir məhəbbətdir,
Mən o məhəbbətdən nişan gətirdim.

Qardaşım, illərlə istədin ki, sən,
Öz ana yurdumda azad olum mən…
Lakin cəlalımı dağıtdı düşmən,
Tək sənə, tək sənə güman gətirdim.

Yenə Azərbaycan qan ağlayır, qan,
O azad olmasa, yaşamam, inan!
Gərək mən Təbrizə qayıdan zaman,
Deyəm ki, təzə bir dövran gətirdim.



Hökümə Billuri

## QAMƏTİ ƏYİLMİŞ HEYDƏR BABANIN

Yaramın üstünə yara vurdular,
Bakının dərdinə Təbriz ağlayır.
Yaralı Bakının qolları üstə,
Hər keçid, hər cığır, hər iz ağlayır.

Dumana bürünür həsrətli dağlar,
Həzin yaş axıdır ağlar bulaqlar.
Alışan sinələr, sönən ocaqlar,
Gecə fəğan edir, gündüz ağlayır.

Sinələr üstündə qəmlər danışdı,
Arzular, niyyətlər qanla qarışdı,
Qələmim bu dərddən yanıb alışdı,
Sözlərim kövrəlir, kağız ağlayır.

Yaş gəldi Bakının yaşının üstə,
Buludlar dolaşdı başının üstə.
Qeyrət diz qanatdı daşının üstə,
Min-min ah közərir, min göz ağlayır.

Bakı xoşbəxt imiş, Gəncə bəxtiyar,
Haqqa üz tuturdu haqq deyən diyar.
Sarsılır qəlbində inam, etibar,
Ömrü qışa dönən payız ağlayır.

## YADDAN BİZƏ ANA OLMAZ

*Bizə anadan yaxın dayə lazım deyil (S.C.Pişəvəriyə həsr edilib)*

Səni tək bir ana deyil,
Səni xalqın özü doğub.
Sənin fikrin, əqidənsə
Bizi doğub.
"Yaddan bizə ana olmaz",
"Dayələrin" yoxdur yeri.
Öz yurduna ana dedin,
Öz xalqına ana dedin,
Seyid Cəfər Pişəvəri!
Zülmət qorxub çəkdi köçün,
Günəşdən nur daşıdın sən.
Yaşamadın özün üçün,
Xalqın üçün yaşadın sən.
Azadlığa çağırardın
Hüquqsuz olan milləti.
Zaman özü verdi sənə,
Bu qüruru, bu hünəri,
Seyid Cəfər Pişəvəri.
Hər cümləni, hər yazını,
Dönə-dönə öyrənirik.
Sən tutduğun yol - yolumuz,
Səninlə bir yol gedirik.
Düşmənlərin yığın-yığın,
Yarpaqlar tək xəzan oldu,
Sənin zirvən, ucalığın
"21 Azər" oldu.
Aparırıq Gələcəyə
Qəlbimizdə bu səhəri.



TARIYEL ÜMİD -
İranlı Mühacirlər
Ədəbi Birliyinin sədri.



Mədinə GÜLGÜN

## ŞƏHİD BALALARA

Dərdimi necə deyim, vallah deyə bilmirəm,
Mən necə üsyan edim yerə-göyə, bilmirəm.
Başıma qara salıb, qara geyə bilmirəm,
Bu şəhid balaların ölən çağı deyildi.

Ağlatdılar daşı da, torpağı da, ay Allah,
Sındırdılar bir körpə budağı da, ay Allah.
Bağlı qaldı neçə bəy otağı da, ay Allah,
Bu şəhid balaların ölən çağı deyildi.

Bir gəlinin əlindən getməmişdi hənası,
Bir gülləylə dağıldı onun ömür dünyası.
İndi analar tutur oğul yası, qız yası,
Bu şəhid balaların ölən çağı deyildi.

Bu, zamanın hökmümü, inana bilmirəm mən,
Bu dərdlərin önündə yenə əyilmirəm mən.
Sənə təsəlli üçün sözüm çatmır, ey Vətən,
Bu şəhid balaların ölən çağı deyildi.

Dayanmışam kədərlə məzarların önündə,
Dönür göz yaşlarına göydə duman da, çən də.
Dünya mənə dar gəlir elimin dar günündə,
Bu şəhid balaların ölən çağı deyildi.

Dayanmışam, gözümdə iki damla yaş mənim,
İçimdə haray salan tufan mənim, qış mənim.
O güllələr dəyəydi bu sinəmə kaş mənim,
Bu şəhid balaların ölən çağı deyildi.

Hələ çoxlu fıdanın boy atası vaxtıdır,
Quşların körpələri oyadası vaxtıdır.
Çox ananın kam alıb, toy tutası vaxtıdır,
Bu şəhid balaların ölən çağı deyildi.

# VALEH QULUZADƏ VƏ ADF-NİN ƏN AĞIR İLLƏRİ

**Rza Quluzadə Həzi oğlu 1911-ci ildə Ərdəbil rayonunun Ağimam kəndində əkinçi ailəsində anadan olub. O cavanlığında yaxın qohumları ilə Bakıya gəlib və 1938-ci ilə qədər İçərişəhərdə yaşayıb, neft sənayesində fəhlə işləyib. Həmin ildə Rza Quluzadə ailəsi ilə bir yerdə başqa cənublular kimi öz yurduna qayıtmalı olub, yenidən Ərdəbildə məskunlaşıb.**



1945-46 cı illərdə (1324-25 İran təqvimi ilə) İranda inqilabi hərəkətlər güclənəndə, atası Azərbaycan Demokrat Firqəsi sıralarına qəbul olunub, bütün qüvvəsini və imkanlarını inqilabi mübarizəyə həsr edib.

Valeh Quluzadə elə həmin illərdə, kiçik yaşlarından atasının yolu ilə addımlayıb və "Hamarkənd" mahalının təşkilat sədri Səfərbaba Bəndi ilə təşkilati işlərdə fəaliyyətə başlayıb. O, Ərdəbil mahalının şiddətli şaxtasında, Səfərbabanın sifarişi ilə firqə fədailərini müxtəlif istiqamətlərdə müşayyət etmişdir. Atları kəndə qaytardığı üçün həmişə Səfərbaba tərəfindən alqışlanırdı.

1946-cı ilin dekabr ayında (1325 azər ayı) 21 Azər hərəkatı daxili və xarici irtica qüvvələrinin birgə əməkdaşlığı nəticəsində süqut etdi. Şah ordusunun zabitləri Quluzadələrin kənddəki evinə hücum etdilər. Onlar Valehin atasını tutub naməlum istiqamətə göndərib evlərini viran etdilər, anası və bacılarını yaxın qohumlar gizlətdi. O isə kişik qardaşı ilə kəskin şaxta və qarlı gecədə qapı və pəncərələri sındırılmış bir otaqda gizlənməli oldular. Sabahısı səhər vaxtı Valeh başa düşdü ki, hər iki balaca qardaşları şaxtadan donub həlak olub.

Çox işgəncələrə məruz qalan, 3 il əzab-əziyyətdən və qaçaq olandan sonra, nəhayət təqiblərdən yayınaraq, 1949-cu ilin dekabrında (1328 azər ayı) atası və ailəsi ilə birlikdə "Biləsuvar" sərhədindən Sovet Azərbaycanına mühacirət etdilər.

Dövlət onları Şamaxı rayonunda üzümçülük sovxozunda məskunlaşdırdı. Valeh Quluzadə orta məktəbi həmin yerdə bitirdi və 1959-cu ildə Quba Kənd Təsərüfatı Texnikumunun aqronomluq şöbəsinə daxil oldu. O, təhsil aldığı illərdə nümunəvi tələbə kimi Xaçmaz rayonunda olan Qusarçay elmi-təcrübə şöbəsində kiçik elmi işlərdə çalışmağa başladı.

1964-cü ildə Valeh Quluzadə texnikumu bitirdikdən sonra, Saatlı və Sabirabad rayonunda, Nizami adına kolxozda baş aqronom vəzifəsində işə başlayıb. Valeh Quluzadə elə tələbə vaxtından ictimai, siyasi və təşkilati işlərin fəal iştirakçısı olduğuna görə, 1963-cü ildə ADF-nin Quba şəhər komitəsində təbliğat şöbəsinə məsul şəxs olaraq təyin edilir. Saatlı və Sabirabadda işləyərkən, onun ictimai işlərdə fəallığı ADF-nin Əlibayramlı (Şirvan) şəhər komitəsi rəhbərliyinin diqqətini cəlb edib. Komitə sədri Əlihüseyn İsmayılzadənin təklifi ilə ADF üzvlüyünə namizəd qəbul olunur və bir müddətdən sonra, sədrin məsləhəti ilə şəhər komitəsinin plenumunda məşvərətçi səslə iştirak edir. Qısa müddətdən sonra, 1964-cü ilin avqustunda şəhər cavanlar təşkilatının sədri vəzifəsinə seçilir.

O, 1971-1975-ci illərdə Bakı Ali Partiya məktəbində təhsil alıb. Valeh Quluzadə 1979-cu ildən müntəzəm şəkildə ADF MK-nın plenum iştiraçısı olub. 1982-ci ildə ADF-nin Əlibayramlı Şəhər Komitəsinin birinci katibi vəzifəsinə seçilmiş və uzun müddət həmin vəzifədə çalışıb. O, 1982-ci ildə ADF MK-nın rəsmi üzvlüyünə seçilib. 1988-ci ildən Valeh Quluzadə ADF MK-nın İcraiyyə (siyasi) Heyətinə seçilib. Əmirəli Lahrudinin vəfatından sonra ADF rəhbərliyini üzərinə götürmüş və bu vəzifəni ömrünün sonuna qədər ləyaqətlə daşıyıb. 2019-cu ildə vəfat edən partiya sədri qəlblərdə səmimi və mübariz insan kimi qalıb.



Arif Abdullazadə

## ŞƏHİDLƏR ALDI

Ölmədik, ölmədik, ey uca Allah,
Bu qanlı-qadalı günü də gördük.
Biz də sözümüzü ucadan dedik,
Biz də bu zamandan bir gün götürdük.

Ölmədik, axır ki, biz də tanıdıq,
"Doğma" qisasını, yad yağımızı.
Qırıla-qırıla biz də suvardıq,
Bəxtimizə düşən torpağımızı.

Yaman darıxmışdıq, qəribsəmişdik
Şəriksiz vətənçün vətən içində,
Dilimiz qalmışdı özgə ağızda,
Ruhumuz bir başqa bədən içində.

Bu yad ağızların, yad bədənlərin
Az qala içində əriyəcəkdik,
Tale də bizlərdən üz döndərəcək,
Gəl qara bəxtindən küs, deyəcəkdi.

Ölmədik, ölmədi taleyimiz də,
Bizə də ölü yox, şəhid dedilər.
Bizə də haqqını özün qazan,
Bizə də sözünü yerit, dedilər.

Ölmədik, ruhlardan qoşun yaratdıq,
Torpağa qarışan andımız oldu.
Bu doğma Şəhidlər Xiyabanımız
Üstümüzə gələn sellər önündə
Canlardan çəkilən bəndimiz oldu.

Ölmədik, əsarət qapılarını
Hələ qanımızla çox döyəcəyik,
Hələ qarşıdadır şəhid ömrümüz,
Qərənfil altında qalan yollarda
Şəhid düşəcəyik, ölməyəcəyik.



# ADF-NİN 7-Cİ SƏDRİ MİLLİ VİCDANIN SƏSİ - RƏHİM HÜSEYNZADƏ

**Rəhim Məmməd oğlu Hüseynzadə 1951-ci ildə martın 3-də Gəncə şəhərində dünyaya gəlib. 1958-1968-ci illərdə 5 saylı orta məktəbdə təhsil alıb. 1973-cü ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini, 1983-cü ildə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını (keçmiş Bakı Ali Partiya Məktəbi) fərqlənmə diplomu ilə bitirib.**



Məhəmməd Hüşməndi
Nünə Kəran fədai başçısı



1973-1977-ci illərdə yeni yaradılan Neftçala rayonunda "Gündoğar" qəzetinin, 1977-1992-ci illərdə Salyan rayonunda "Qələbə" qəzetinin şöbə müdiri işləyib. Bu redaksiyalarda çalışdığı müddətlərdə SSRİ Jurnalistlər İttifaqının və Azərbaycan Jurnalistlər İttifaqının 30-a yaxın mükafatına, 1985-ci ildə isə "Qızıl Qələm"ə layiq görülüb. 1992-1996-cı illərdə Salyan rayon icra hakimiyyəti başçısının köməkçisi və məsləhətçisi vəzifələrində işləyib. 2000-ci ildən "Qırxçıraq" regional qəzetinin baş redaktoru kimi səmərəli fəaliyyətinə görə həmin nəşr Azərbaycan Mətbuat Şurasının təsisçiləri sırasına qəbul olunub. 2004-cü ildə MŞ-də icraçı katib vəzifəsinə təyin edilib. Mətbuat Şurasının məhdud işçi qüvvəsi ilə, ağır sosial şərtlər altında fəaliyyət göstərdiyi dönəmlərdə R.Hüseynzadə bacarığı və təcrübəsi ilə Şuranın möhkəmlənməsinə mühüm töhfələr verib. Onun hazırki statusunun əldə edilməsində, media-ictimaiyyət, media-hakimiyyət münasibətlərinin tənzimlənməsində onun dəyərli tövsiyələrinə istinad olunub. Nəticədə 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Əməkdar Jurnalist fəxri adına layiq görülüb.

2008-ci ilin sentyabrından "Zərdabi" Mətbuat Mərkəzi İctimai Birliyinin sədridir. Rəhim Hüseynzadənin yaşadığı 75 illik ömür tarixi və həyat xəritəsi atası Məhəmməd kişinin Azərbaycan Demokrat Firqəsinin rəhbərliyi altında baş vermiş milli-demokratik hərəkatda bir fədai başçısı olaraq iştirakı, 21 Azər kimi tarixə düşmüş bu hərəkat nəticəsində 1945-ci ilin dekabr ayının 12-də yaradılmış Azərbaycan Milli Hökumətinin fəaliyyəti, bir ildən sonra eyni gündə beynəlxalq imperializmin və İran irtica hökumətinin əli ilə bu milli qurumun devrilməsindən və süqutundan sonra Şimali Azərbaycana mühacirəti, burada məskunlaşması və yaşayışı ilə bağlı olub.

Rəhim Hüseynzadənin Gəncə təvəllüdlü olması onun tərcümeyi-halında xüsusi yer tutur. 1946-cı il dekabrın 12-də Milli Hökumət süqut etdikdən sonra Ərdəbildə fədai dəstələrindən birinə başçılıq etmiş Məhəmməd kişi digər fədai və firqəçilərlə birgə Araz çayı üzərindəki körpüdən sərhəddi keçib Şimali Azərbaycana gəlib. O, Gəncə yaxınlığındakı Hacıkənddə təşkil olunmuş düşərgədə döyüş cəbhəsindən gəlmiş 250 nəfər fədailərlə birgə hərbi təlim keçmişdir. Bu təlimlərdən məqsəd fədailərlə İrana qayıtmaq və düşmənlə yenidən savaşa girmək, öz haqlarını geri almaq ümidi idi. Əslində Şimali Azərbaycana mühacirət etmiş 21 Azər hərəkatının bütün iştirakçıları kimi, o da ömrünün sonuna qədər bu ümidlə yaşadı, həyatının sonuna kimi firqə üzvü olaraq qaldı.

Bu hərbi təlimlər S.C.Pişəvərinin ölüm gününə kimi (11.06.1947) davam etdirilmiş, sonra isə düşərgədə təlim keçən və Vətənə qayıdaraq yenidən milli azadlıq uğrunda mübarizəni davam etdirmək ümidi ilə yaşayan fədailəri müvafiq bölgələrdə işləmək və yaşamaq üçün göndərmişlər.

Məhəmməd kişi də bir qrup fədai yoldaşı ilə birgə Gəncədə işləməyə göndərildi və burada ailəsi ilə yaşamalı oldu. Rəhim Hüseynzadə də bu şəhərdə dünyaya gəldi. Özünün şəxsi həyat hekayəsi də çayqırağı Namazallılar deyilən məhəllədən başladı.

Rəhim kiçik yaşlarında, ağlının kəsdiyi çağlarda atasının Gəncədəki evinə yığışan fədailərin milli azadlıq uğrunda apardıqları mübarizə və bu xatirələrlə yoğrulmuş, şəxsiyyəti, dünyagörüşü, baxışları da bu xatirələr üzərində formalaşmış və möhkəmlənmişdir. Özünün də dəfələrlə qeyd etdiyi kimi Cənubla bağlı istək və arzuları bugünədək həyatının başlıca amalı olmuş, bütün ümidlərinin fövqündə dayanmışdır. O səbəbdən də, R.Hüseynzadənin həyatında əsas hədəf atasının timsalında İranda yaşayan azərbaycanlıların milli-demokratik, milli-mədəni hüquqlarının təmin edilməsi uğrunda Azərbaycan Demokrat Firqəsinin "12 şəhrivər müraciəti"nə qoşulmuş 100 minlərlə fədai və demokratın başladığı yolu davam etdirmək, uğurlu nəticələrə nail olmaqdır.

Elə bu amalla da 1975-ci ildə Azərbaycan Demokrat Firqəsi sıralarına daxil olmuş, ADF-nin Salyan rayonlararası təşkilatına 1982-2004-cü ilə kimi rəhbərlik etmişdir. Firqə rəhbərliyi etimad göstərərək onu bir sıra prinsipial tədbirlərdə iştirak edən nümayəndə heyətinin tərkibinə daxil etmişdir. R.Hüseynzadə təşkilatda kritik vəziyyət yarananda, rəhbərliyin Firqə dəst-xəttinə aid olmayan şəxslərin, o cümlədən digər təşkilatların təmsilçilərinin əlinə keçmə təhlükəsi yarananda məsləkdaşları ilə buna yol verilməməsi üçün prinsipial yol seçmişdir. 2019-cu ildə ADF MK-nın plenumlarında həmin şəxslər layiqli cavablarını almış, onların Firqə ilə əlaqələrinə tam xitam verilmişdir. Həmin ilin noyabrında keçirilən ADF-nin ikinci qurultayı bu mövqeyi tam dəstəkləmiş, İran Xalq Partiyası (Tudə) ilə təşkilati əlaqələrin bütünlüklə kəsildiyini bəyan etmiş, rəhbər orqanlarını seçmişdir. R.Hüseynzadə yekdilliklə Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin sədri seçilmişdir. Ötən müddətdə Firqənin həyata keçirdiyi önəmli işlərdən biri də partiya saytını faktiki olaraq özəlləşdirmiş saytdan imtinası və yerində Azerbaycan-ruznamesi.org saytının yaradılması olmuşdur. Nəticədə Firqə üzvləri faktiki olaraq yenidən özlərinin fikir və baxışlarının ifadəçisi olan mətbu tribuna əldə etmişlər.

Bu gün R.Hüseynzadənin 75 yaşı tamam olur. O, əvvəlki kimi yorulmaz, işgüzar və ideyalarına sadiqdir. Bu onun əməllərində və oxucularına ərmağan etdiyi yazılarında da özünü qabarıq göstərir.

**Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsi**

## RƏHİM HÜSEYİNZADƏNİN MÜKAFATLARI

"Azərbaycan milli mətbuatının 150 illiyi (1876-2025)" yubileyi medalı



Əməkdar jurnalist



"Qızıl qələm" mükafatı



Redaktor müavinləri:
Abdulla Əmir Haşimi və Pərviz Kazimi

AZƏRBAYCAN RUZNAMƏSİ

https://azerbaycan-ruznamesi.org